**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**RƏXŞƏNDƏ QURBAN qızı BAYRAMOVA**

# QUBA BÖLGƏSİ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

Bakı – 2018

***Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti" şöbəsində yerinə yetirilmişdir***

**Elmi rəhbər:**
**Tarix üzrə fəlsəfə doktoru N.Ə. Maksvell**

**Rəsmi opponentlər:**
**Tarix üzrə elmlər doktoru, professor**
**Dövlət Mükafatı Laureatı K.K.Şükürov**
**Tarix üzrə fəlsəfə doktoru,dosent F.F.Əhmədova**

**Aparıcı müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

**Müdafiə "___" __________ 2018-ci il saat "___"da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D. 01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.**

**Ünvan: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115**

**Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.**

**Avtoreferat "___" ___________ 2018-ci ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının elmi katibi:**
**tarix üzrə fəlsəfə doktoru, dosent C.Ə. Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Azərbaycanın tarixi ərazilərinin ayrı-ayrı bölgələrinin müxtəlif dövrlərə dair tarixin obyektiv öyrənilməsi və tədqiqi bütövlükdə Azərbaycan Milli tarixşünaslıq elminin mühüm istiqamətlərindən birini təşkil edir. Azərbaycan xalqının əsrlər boyu yaşadığı, dövlətlər qurduğu tarixi ərazilərində müxtəlif dövrlərdə baş vermiş ictimai-siyasi, mədəni-mənəvi, sosial-iqtisadi prosesləri dərindən araşdırmadan onun bitkin və obyektiv tarixini yazmaq mümkün deyildir. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi də bu baxımdan istisna deyildir. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövlətinin banisi Ümummilli lideri Heydər Əliyev: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və\ xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindəndir" [1] fikri xüsusi qeyd etmək onun tarixinin öyrənilməsini ön plana çəkmişdir. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illi tamam olduğunu nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əllliyev tərəfindən bu ilin "Cümhuriyyət ili" etməsi baxımından da Azərbaycan Xalq Cümhuriyyəti tarixinin, o cümlədən Azərbaycanın ayrı-ayrı bölgələrinin cümhuriyyət dövrü tarixinin dərindən öyrənilməsi müasir Azərbaycan milli tarixşünaslıq elmi üçün elmi və siyasi əhəmiyyət kəsb edir.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra milli tariximizin digər dövrləri kimi Cümhuriyyət dövrünün, daha geniş aspektdə, 1917-1920-ci illər dövrünün tarixşünaslığı böyük inkişaf yolu keçmiş, xalqımızın tarixində şərəfli yer tutan bu dövrün problemlərinə dair bir sıra sanballı əsərlər yazılmış, sənədlər məcmusu işıq üzü görmüşdür. Bununla yanaşı etiraf etmək lazımdır ki, 1917-1920-ci illər dövrü zaman kəsiyi etibarı ilə böyük dövr olmasa da, baş vermiş ictimai-siyasi hadisələr, xalqımızın gələcək tarixi taleyinə göstərdiyi təsirin əhatəliyinə görə digər tarixi dövrlərdən əhəmiyyətli dərəcədə fərqlənir.

Dövrün tarixi hadisə və prosesləri coğrafi baxımdan Bakı şəhəri ilə məhdudlaşmamış, Şimali Azərbaycanın bütün bölgələrinə bu və ya digər dərəcədə öz təsirini göstərmişdir. Eyni zamanda regionlarda baş vermiş hadisələr də bütövlükdə Azərbaycan miqyasında əks-səda vermiş, proseslərin axarına müəyyən dərəcədə əks təsir göstərmişdir.

Azərbaycanın tarixi ərazilərindən biri, xalqımızın dövlətçilik tarixində, mənəvi-mədəni dirçəlişdə, iqtisadi inkişafında xüsusi yer tutan Quba bölgəsində, bütövlükdə Şimal-Şərqi Azərbaycanda 1917-ci ilin fevral

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar. Bakı 2005. Səh. 389

inqilabından sonra baş vermiş ictimai-siyasi proseslər mahiyyəti etibarilə yalnız o zamankı Quba qəzasının ərazisi ilə məhdudlaşmayaraq həm Şimali Azərbaycanın, həm də bütövlükdə regionun siyasi həyatında ciddi dəyişikliklərə gətirib çıxarmışdır. Bunun əsas səbəblərindən biri heç şübhəsiz Quba bölgəsinin coğrafi-siyasi mövqeyi ilə bağlıdır. Azərbaycanın şimal-şərq torpaqlarını əhatə edən Quba qəzası o zaman sovet Rusiyası ilə həmsərhəd ərazidə yerləşdiyindən, orada cərəyan edən hadisələrin, xüsusən Şimali Qafqazda, Dağıstanda hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələr arasında gedən mübarizənin cazibə dairəsində yerləşirdi. Bu qüvvələrin Azərbaycanla bağlı planlarında Quba qəzası, onun nəqliyyat-kommunikasiya potensialı xüsusi yer tuturdu. İkincisi, Quba qəzası inzibati cəhətdən Bakı quberniyasının tərkibində olduğundan, coğrafi cəhətdən Bakı şəhərinə yaxın olduğundan, 1917-ci ilin sonları - 1918-ci ilin ortalarında Bakıda hakimiyyəti ələ keçirmiş bolşevik-daşnak güruhu Bakıda, Şamaxıda və digər bölgələrdə həyata keçirdikləri cinayətləri bu qəzanın ərazisində daha qanlı şəkildə və böyük miqyasda təkrar etmiş, bölgə əhalisini kütləvi soyqırımına məruz qoymuşlar.

Üçüncüsü, Quba qəzası Şimali Azərbaycan üçün mühüm strateji əhəmiyyət kəsb etdiyindən, Cümhuriyyət hökuməti ölkənin təhlükəsizliyini, ərazi bütövlüyünü qorumaq məqsədilə bu bölgənin mühafizəsi, şimal sərhədlərinin möhkəmləndirilməsi üçün bir sıra hərbi-addımlar atmışdır.

Dördüncüsü, o zaman Cümhuriyyət hökumətinin Quba qəzası və digər bölgələrlə bağlı həyata keçirdiyi siyasi, hərbi, iqtisadi, diplomatik tədbirlərlə bu gün Azərbaycan dövlətinin apardığı siyasət arasında müəyyən varislik, oxşarlıq özünü göstərir. Bu gün olduğu kimi, həmin dövrdə də Şimali Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə qənim kəsilən müəyyən qüvvələr Quba qəzası ərazisində siyasi sabitliyi pozmağa, müxtəlif əhali qrupları arasında nifaq toxumu səpməyə çalışırdılar.

Bütün bunlar Quba qəzasında 1917-1920-ci illərdə cərəyan etmiş siyasi proseslərinin obyekti tədqiqini və öyrənilməsini zəruri edir.

**Tədqiqatın xronoloji çərçivəsi:** Dissertasiya xronoloji baxımdan XX əsrin əvvəllərini əhatə edir. 1917-1920-ci illərdə Quba qəzasında sosial-iqtisadi vəziyyəti, Fevral inqilabından sonra qəzada siyasi dəyişikliklər, Bakı Sovetinin hərbi qüvvələrinin qəzaya hücumu, Qəzada soyqırımın həyata keçirilməsi və onun nəticələri, Denikin təhlükəsinə qarşı mübarizə məsələləri araşdırılır. Dissertasiya işinin xronoloji çərçivəsinin 1917-1920-ci illəri əhatə etməsi təsadüfü olmayıb tədqiqat obyektinin xüsusiyyətlərindən irəli gəlir. Bununla belə AXC-nin bölgədə suverenliyinin təmin edilməsi və siyasi dəyişikliklərin həyata keçirilməsi, sosial münasibətlərin gərginləşməsi, sovet rejimi əleyhinə çıxışlar və başqa məsələlərin tədqiqi ilə əlaqədar olaraq

müəyyən edilmiş xronoloji çərçivədən kənara çıxmaq zərurəti yaranmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi:** Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan tarixşünaslıq elminin ən mühüm inkişaf istiqamətlərindən birini vətənimizin ayrı-ayrı bölgələrinin tarixinin hərtərəfli öyrənilməsi təşkil edir. Bu istiqamətdə son dövr ərzində bağlı bir sıra monoqrafiyalar yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Bu əsərlər sırasında 1918-1920-ci illərdə müxtəlif bölgələrdə cərəyan etmiş hadisələrin təhlilinə həsr edilmiş əsərləri xüsusi ilə qeyd etmək lazımdır. Bu baxımdan İ. Musayevin "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1918-1921-ci illər), Bakı, 1998" və V.Əliyevanın "Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin Lənkəran bölgəsində bərqərar edilməsi, Bakı, 2012" əsərlərini qeyd etmək lazımdır. Son illərdə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunda bölgələrimizin tarixinin öyrənilməsi sahəsində aparılan işlərin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. İnstitutda aparılan tədqiqatlar nəticəsində Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ, Borçalı, Dərbənd, Zaqatala. Gəncə, Şamaxı, Qubadlı, Füzuli və başqa bölgələrinin tarixinə dair sanballı əsərlər işıq üzü görmüşdür. Həmin əsərlərdə 1917-1921-ci illərdə bölgələrimizdə cərəyan etmiş ictimai-siyasi proseslər də müəyyən qədər öz əksini tapmışdır. Əlbəttə, Quba bölgəsi də diqqətdən kənarda qalmamış, bölgənin tarixi ilə bağlı maraqlı tədqiqatlar hazırlanmışdır. Lakin bu tədqiqatların əksəriyyəti bölgənin Cümhuriyyətəqədərki dövrünü əhatə edir. 2007-ci ildə Quba şəhərində bölgənin tarixinə həsr edilmiş elmi konfrans keçirilmiş, konfransın materialları Tarix İnstitutunun Elmi Əsərlərinin xüsusi cildində (2007-ci il, 22-ci cild) nəşr edilmişdir. Lakin bütün bunlarla yanaşı, qeyd olunan məsələlərin elmi aktuallığına və əhəmiyyətinə baxmayaraq Quba qəzasında 1917-1920-ci illərdə baş vermiş hadisələr indiyədək ayrıca tədqiqat obyekti olmamışdır.

Problemə dair tarixşünaslığı şərti olaraq üç istiqamətdə təsnifləşdirmək olar:

1. Azərbaycan tarixinə, o cümlədən 1917-1921-ci illər dövrünə dair əsərlər
2. Quba və ətraf bölgələrin tarixinə həsr edilmiş əsərlər
3. Azərbaycanlıların soyqırımının tədqiqinə dair əsərlər

1. Quba qəzasının tədqiq olunan dövr tarixi ilə bağlı bir sıra məqamlara həm sovet dövrü, həm də müasir dövr tarixşünaslığında Şimali Azərbaycanda inqilabi hərəkat, sovet hakimiyyətinin qurulması və Cümhuriyyət tarixinin öyrənilməsi kontekstində toxunulmuşdur.

Sovet tarixşünaslığında Quba qəzasında gedən proseslərə bütövlükdə Azərbaycanda kəndli hərəkatı, sosialist inqilabının inqilabının qələbəsi, əksinqilaba və xarici hərbi müdaxiləyə qarşı mübarizə kimi məsələləri öyrən-

mək məqsədilə toxunulmuş, qəzada 1918-ci ilin aprel-may aylarında bolşevik-daşnak rejiminin həyata keçirdiyi soyqırımı isə sovet hakimiyyətinin zəfər yürüşü kimi qiymətləndirilmişdir. Sovet tarixşünaslığı bütün digər məsələlərdə olduğu kimi, Quba qəzasında cərəyan edən siyasi, iqtisadi, geosiyasi proseslərə sinfi-ideoloji prizmadan yanaşdığından onun nəticələri obyektiv, elmi səciyyə daşıya bilməz.

XX əsrin 20-40-cı illərində işıq üzü görmüş əsərlərdə Quba qəzası ilə bağlı məqamlara demək olar ki, toxunulmamış, bölgədəki hadisələr yalnız qəzalarda kəndli hərəkatının genişlənməsi və Denikinin Şimali Qafqazda fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin onunla münasibətləri kontekstində işıqla-ndırılmışdır. Bu baxımdan N.Piçelinin, M.D.Hüseynovun, Ə.H.Qarayevin, A.Rayevskinin, Y.Ratqaüzerin, A. Steklovun əsərləri səciyyəvidir. Bu əsərlər əsasən təbliğat xarakteri daşıyır, oradakı faktlar isə bolşevizm postulatlarını təsdiq etmək məqsədi güdürdü[2].

XX əsrin 50-80-ci illərində Azərbaycan Sovet tarixşünaslığının ən çox müraciət etdiyi problem məhz 1917-1920-ci illər dövrü olmuşdur. Bəzi əsərlər müstəsna olmaqla, bu mərhələdə tədqiqatlar əsasən Sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsini, Azərbaycanda inqilabi hərəkat, bolşevik sovet rejiminin qurulmasına həsr edilmiş və əsasən ümumazərbaycan miqyasında baş verən prosesləri əhatə etmişdir. H.Əzimovun, Z.İbrahimovun, C.Quliyevin, İ.Hüseynovun, T.Köçərlinin, Ə.Sumbatzadənin, İ.Tokarjevskinin və başqalarının əsərlərində[3] fraqmentar şəkildə də olsa Quba qəzasında

---

[2] Гусейнов М.Д. Тюркская демократическая партия федералистов «Мусават» в прошлом и настаящем. Б.: Азгиз, 1927; Караев А.Г. Из недавного прошлого // Материалы к истории Азербайджанской Коммунистической партии. Б.: Аз Гиз, 1927; Пчелин Н.Н. Крестьянский вопрос при Мусавате (1918-1920 гг.) Очерки. Б.: Аз НО, 1931; Раевский А. Партия мусават и ее контрреволюционная работа. Б.: Азгиз, 1929; Ратгаузер Я. А. Борьба за Советский Азербайджан. К истории апрельского переворота. Баку: Ист парт отдел ЦК и БК АКП (б), 1928; Стеклов А. Армия Мусаватского Азербайджана. Б.: Азгиз, 1928

[3] Əzimov H. Azərbaycan qəzalarında Sovetlər. B., Elm, 1971, 188 s.;Yenə onun: İnqilablar dövründə Azərbaycanda kəndli təşkilatları və sinfi mübarizə, B., Elm, 1976; İskəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. B.: Adiloğlu, 2006; Katibli M. Qəzənfər Musabəyov, B., Bilik, 1958; Köçərli T. Tarixi saxtalaşdıranlar əleyhinə. B.: Azərnəşr, 1972, 183; Rəhimov Ə. 1920-ci- ildə Azərbycanda mülkədar torpaq sahibliyinin ləğv edilməsi məsələsinə dair // Böyük Oktyabr və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə // B., 1958; Гаджиев И. Совместная борьба трудящихся Азербайджана и Дагестана за власть Советов. 1918-1920. Махачкала: ДКИ, 1968; Гулиев Дж. Б. Борьба Коммунистической Партии за осуществление ленинской национальной политики в Азербайджане. Б.: Азернешр, 1970; Гусейнов Дж. Крестьянское движение в Азербайджане в начале XX века (1900-1917 гг.). Автореферат диссер. докт. ист. наук. Б.:, 2008; Гусейнов И.А. Борьба за победу Советской власти в Азербайджане. Б.: АН Аз ССР, 1967; Искендеров М.С. Из истории борьбы Коммунистической партии Азербайджана за

kəndli hərəkatı, bolşeviklərin fəaliyyəti, sovetlərin yaradılması məsələləri öz əksini tapmışdır. Bu əsərlərdə Quba qəzası ilə bağlı ən çox toxunulan mövzu 1918-ci ilin yazında Bakı Sovetinin Quba qəzasında öz hakimiyyətini bərqərar etmək üçün həyata keçirdiyi tədbirlərdir. Əlbəttə bu zaman real hadisələr tamamilə təhrif olunmuş, bolşevik-daşnak qüvvələrinin bölgədə törətdiyi vəhşiliklər Sovet hakimiyyətinin qələbəsi kimi qiymətləndirilmişdir. Bununla yanaşı, bəzi əsərlərdə Hamazaspın komandanlığı altında daşnak hərbi hissələrinin Qubada törətdikləri vəhşiliklərə də ötəri olsa toxunulmuş, onların əməlləri nəticəsində qəza əhalisinin müəyyən qədər tələfat verildiyi qeyd olunmuş, lakin bu əməllərin Sovet hakimiyyətinin, bolşeviklərin siyasəti ilə heç bir əlaqəsinin olmadığı iddia edilmişdir. Əksinə, bütün qəzalarda olduğu kimi, Qubada da milli qırğının törədilməsində Azərbaycanın milli siyasi qüvvələrinin üstünə atmaq meyli bu əsərlərdə açıq-aşkar özünü göstərir.

Göstərilən dövr tarixşünaslığında 1920-ci ilin əvvəllərində Sovet Rusiyasının Şimali Azərbaycanı işğal etmək üçün planlaşdırdığı hərbi-siyasi tədbirlər, XI Ordunun hazırlıqları, bilavasitə Quba qəzası ərazisində həyata keçirdiyi hərbi əməliyyatlar, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin işğalının qarşısını almaq üçün gördüyü əks-tədbirləri əks etdirən məsələlər öz əksini tapmışdır.

Müasir Azərbaycan milli tarixşünaslığının Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr edilmiş əsərlərində Quba qəzasındakı siyasi, iqtisadi proseslər bilavasitə ayrıca tədqiqat obyekti olmasa da bir sıra məqamlara ümumi Azərbaycan tarixi kontekstində toxunulmuşdur[4]. Bu

---

победу Советской власти. Б.: Азернешр, 1958; Кочарли Т. Исторический поворот в судьбах азербайджанского народа. Б.: Азернешр, 1980; Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М: Наука, 1972; Токаржевский Е. Бакинские большевики-организаторы борьбы против турецко-германских и английских интервентов в Азербайджане в 1918 г. Б.: Изд. АН, 1949, 175; Токаржевский Е.В. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Б.: Изд. АН, 1957;Траскунов М.Б. Героический боевой путь XI Армии на фронтах гражданской войны, Тбилиси, Изд. ЗВО, 1958

[4] Azərbaycan Cümhuriyyəti (1918-1920), B., Elm, 1998; Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. 2 cilddə, I cild, B., Lider nəşriyyatı, 2004; Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. 2 cilddə, II cild, B., Lider nəşriyyatı, 2004; Azərbaycan Xalq Cümhuriyyətinin 82-ci ildönümünə həsr olunmuş respublika konfransının materialları, B., 2000; Azərbaycan tarixi, 7 cilddə, V cild, (1900 – 27 fevral – 1920), B., Elm, 2001; Göyüşov A. Azərbaycanda ittihadçılıq. B., Bakı Universiteti, 1997; Həsənli S. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, 1918-1920, B.: 2009; Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1918-1920-ci illər. B.: Azərnəşr, 1993; İsayev N. Azərbaycan Demokratik Respublikasının sosial-mədəni siyasəti (1918-1920-ci illər), t.e.n. d. avtoreferatı, B.: 1992; İskəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. B.: Adiloğlu, 2006; Назарли А. Народное образование в Азербайджанской Республике. Б.: Нурлан, 2008

baxımdan A.Adıgözəlovanın namizədlik dissertasiyasını xüsusi qeyd etmək lazımdır. Dissertasiyada 1917-ci ilin martından 1918-ci ilin aprelinədək olan dövrdə Azərbaycanda yerli hakimiyyət orqanlarının təşkili prosesi izlənilmiş, bu kontekstdə Quba qəzasında hakimiyyət dəyişikliklərini özündə əks etdirən bir çox məqamlara aydınlıq gətirilmişdir. Əsərdəki faktlar və məlumatlar dissertasiyanın yazılmasına mühüm kömək olmuşdur. M.Süleymanovun "Azərbaycan ordusu" kitabının[5] da dissertasiyanın hazırlanmasında böyük faydası olmuşdur. Əsərdə Azərbaycana şimaldan gələn təhlükələrə (əvvəlcə Denikin təhlükəsi, sonra isə Qırmızı Ordunun hücumlarına) qarşı Azərbaycan hökumətinin həyata keçirdiyi hərbi-mühafizə tədbirlərinə həsr edilmiş xüsusi paraqraf mövcuddur. Burada Quba qəzası ərazisində sərhəd-mühafizə sisteminin möhkəmləndirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət verilmiş, eləcə də Qırmızı Ordunun Şimali Azərbaycana müdaxiləsinə qarşı Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun və yerli hakimiyyət orqanlarının tədbirləri öz əksini tapmışdır. Bu məsələlər N.Osmanlının əsərində[6] də işıqlandırılmışdır. Quba qəzası ilə bağlı məqamlar N.Yücərin Qafqaz İslam Ordusunun Dağıstan hərəkatına həsr edilmiş əsərində[7] vardır. Burada 1918-ci ilin yayında Sovet qoşunlarına qarşı türk qoşun hissələrinin apardıqları uğurlu əməliyyatlar, Quba qəzasının bolşevik-daşnak qüvvələrindən azad edilməsi kimi mühüm məsələlər Türkiyə arxiv sənədlərinə əsaslanaraq təhlil edilmişdir.

2. Artıq qeyd edildiyi kimi, həm sovet hakimiyyəti, həm də müstəqillik illərində Quba bölgəsinin ayrı-ayrı tarixi dövrlərinə Azərbaycan milli tarixşünaslığında bir sıra sanballı əsərlər[8] həsr edilsə də, çox təəssüf ki, bunu Cümhuriyyət dövrü ilə bağlı demək mümkün deyildir. Xüsusən, 1950-1980-ci illər Sovet tarixşünaslığını səciyyələndirən mühüm amillərdən biri kimi bu dövrdə Azərbaycan qəzalarında inqilabi hərəkat tarixi, bolşeviklərin fəaliyyəti və s. məsələlərə ayrıca əsərlərin həsr olunması dissertasiyaların müdafiə edilməsi qeyd edilməlidir[9]. Bu baxımdan M.Rüstəmbəylinin adını xüsusi

---

[5] Süleymanov M.S. Azərbaycan Ordusu (1918-1920). B.: Hərbi nəşriyyatı, 1998

[6] Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. B., Elm, 1990

[7] Yücəər N. Birinci Dünya Müharibəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyatı. Azərbaycan və Dağıstanın öz müstəqilliklərini qazanmaları. 1918, B.: Qafqaz Universiteti, 1999

[8] Fərzəlibəyli Ş. Quba tarixi. B., Əbilov, Zeynalov və qardaşları, 2001; İbişov S. Quba xanlığı. B.: Elm, 2012; Mustafazadə T. Quba xanlığı. B.: Elm, 2005; Абдуллаев Г.Б. Из истории Северо-восточного Азербайджана в 60-80 гг. XVIII века, Баку (Б.): Элм, 1958; Мамедов Н. История города Кубы в XIX – начале XX века. Автореферат. дисс. на соиск. учен. степени канд. ист. наук. Б.: 1989; Əliyev P. Qarabağ bolşevikləri Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə. B., Azərnəşr, 1963

[9] Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. B., Azərnəşr, 1963; Əzimov H. Azərbaycan

olaraq qeyd etmək lazımdır. M.Rüstəmbəyli Azərbaycan sovet tarixşünaslığında ilk dəfə olaraq Quba qəzasında 1917-1922-ci illərdə mövcud olmuş ictimai-siyasi vəziyyəti tədqiqat obyekti kimi seçmiş, 1970-ci ildə "Quba qəzasında Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda qəza zəhmətkeşlərinin mübarizəsi (1917-1922-ci illər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir· Müəllifin sonrakı dövrlərdə mövzuyla bağlı daha iki kitabı işıq üzü görmüşdür[10] 1917-ci il fevral inqilabından sonra Quba qəzasında sosial-iqtisadi, ictimai-siyasi vəziyyət, hakimiyyət dəyişiklikləri, siyasi və ictimai təşkilatların yaradılması və fəaliyyəti, kəndli hərəkatı kimi məsələlər rəsmi sovet ideologiyası mövqeyindən işıqlandırılmışdır. Kitabda 1918-ci ildə Bakı Sovetinin Qubada Sovet hakimiyyətini qurmaq üçün apardığı siyasət, Quba qəzasında hakimiyyət uğrunda milli qüvvələrin mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Quba qəzasında ümumi vəziyyət, Qırmızı Ordunun qəzanı işğal etməsi məsələləri də sovet tarixşünaslığının ehkamlarına uyğun, Cümhuriyyətə tənqidi münasibət ruhunda öz əksini tapmışdır. M.Rüstəmbəylinin qeyd olunan kitabı 1917-1921-ci illərdə Quba qəzasında ictimai-siyasi vəziyyətin təhlilinə həsr edilmiş, demək olar ki, yeganə tədqiqat əsəridir.

S.Rüstəmova-Tohidinin tərtibçisi olduğu, aşağıda da qeyd edəcəyimiz sənədlər toplusuna yazdığı geniş elmi oçerkdə[11] arxiv sənədlərinə, dövri mətbuat materiallarına və müvafiq ədəbiyyata əsaslanaraq Quba qəzasının tarixinə ekskursiya edilmiş, 1917- ci il fevral inqilabından 1918-ci ilin yayınadək qəzada yaranmış siyasi vəziyyət təhlil edilmişdir.

3. Quba bölgəsinin araşdırılan dövr tarixindən bəhs edərkən 1918-ci ildə Bakı Sovetinin bolşevik-daşnak güruhu tərəfindən Azərbaycanın digər bölgələri ilə yanaşı bu bölgədə də günahsız azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi soyqırım hadisəsindən yan keçmək mümkün deyildir.

Son dövrlərdə Cənubi Qafqaz ərazisində 1918-1920-ci illərdə erməni quldur dəstələrinin törətdikləri vəhşiliklər haqqında obyektiv həqiqətlərin ölkə

---

qəzalarında Sovetlər. B., Elm, 1971; Yenə onun: İnqilablar dövründə Azərbaycanda kəndli təşkilatları və sinfi mübarizə, B., Elm, 1976; Miralayev T. Gəncə və Qazax qəzaların kəndlilərinin inqilabi hərəkatına bolşeviklərin rəhbərliyi (1917-1920). B.: Azərnəşr, 1963; Мадатов Г. Победа Советской власти в Нахичевани и образавание Нахичеванской АССР. Б.: Изд. Ан АЗССР, 1968; Мамедов Н. История города Кубы в XIX – начале XX века. Автореферат. дисс. на сониск. учен. степени канд. ист. наук. Б.: 1989; Рустамбейли М. Борьба трудящихся Кубинского уезда зва установление и упрогение Советской власти в уезде (1917-1922 гг), АКД, Б.: 1970

[10] Rüstəmbəyli M. Çarpışan qüvvələr. B.: Maarif, 1991; Yenə onun: Xalqın səadəti uğrunda. B.: Azərnəşr, 1971

[11] Рустамова-Тогиди С. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Б.: 2010

və dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görülmüş, monoqrafiyalar, kitablar yazılmış, sənədlər toplusu hazırlanmışdır. Həmin nəşrlərdə Bakı şəhəri və Azərbaycanın digər bölgələri ilə yanaşı Quba qəzasında baş vermiş qırğınlar haqqında da məlumatlar öz əksini tapmışdır. Quba soyqırımı A.Paşayevin, A.Xəlilovun, A.A.İsgəndərovun, V.Abışovun, V.Arzumanlı və N.Mustafanın, N.Əliyevin, M.Əlizadənin, A.Məlikməmmədovun[12] əsərlərində geniş tədqiq edilmişdir. Bu əsərlər üçün ümumi cəhət, onların demək olar ki, eyni mənbədən –Azərbaycan Respublikası Dövlət Arxivinin 1061-ci Fondunda saxlanılan AXC Fövqəladə Təhqiqat Komissiyasının (FTK) sənədlərindən istifadə etmələridir. A.Paşayev Qubada baş vermiş qırğınları təhlil edərək, bu qırğınların başqa bölgələrlə müqayisədə daha geniş və daha dəhşətli formada törədildiyini, bizə gəlib çatmış şahid ifadələrinin nisbətən az olduğunu, qırğınların dörd dəfə baş verdiyini qeyd edir[13]. A.A. İsgəndərov Azərbaycanda türk-müsəlman soyqırımının tarixşünaslığına həsr edilmiş monoqrafiyasında bu fikirləri təsdiq edərək qeyd edir ki, Quba hadisələrini daha dərindən dərk etmək üçün onları daşnak-bolşevik qüvvələrinin Azərbaycanın başqa qəzalarında törətdikləri qırğınlarla müqayisə etməklə, faktik sənədlər əsasında onların mahiyyətini geniş oxucu kütləsinə çatdırmaq mümkündür. Onun fikrincə, Quba qırğınlarını digər ərazilərdə törədilmiş qırğınlardan fərqləndirən əsas cəhətlərdən biri də buradakı qırğınların təkcə azərbaycanlılara (etnik türklərə - R.B.) qarşı deyil, etnik kökündən asılı olmayaraq bütün müsəlman əhalisinə qarşı törədilməsidir, buna görə də bu qırğınlar, onun nəzərincə, siyasi xarakter daşıyırdı. Müəllif Qubada üç dəfə qırğın törədildiyini vurğulayaraq göstərir ki, Quba qırğınlarını ətraflı araşdırmaq üçün yalnız Azərbaycan arxivləri ilə məhdudlaşmaq olmaz, Moskvanın və Dağıstanın arxivlərindəki sənədlərdən, 1919-ci ilin mətbuat

---

[12] Paşayev A. Açılmamış səhifələrin izi ilə. B.: Azərbaycan, 2001; Yenə onun: XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar və deportasiyalar. Tarix elm. dok. dissertasiyası. B.: 2007; Yenə onun: 1918-ci il Quba qırğınları // Azərbaycan MEA Tarix İnstitutunun Elmi Əsərləri, 22-ci cild, B.: 2007; Халилов А. Геноцид против мусульманского населения Закавказья в исторических источниках, Б.: Азернешр, 2000; İskəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. B.: Adiloğlu, 2006; Abışov V. Azərbaycanlıların soyqırımı, 1918-1920-ci illər, Bakı (B.): Qartal, 2001; Yenə onun: Quba qəzasında erməni cinayətləri (mart-aprel 1918-ci il) //Azərbaycan MEA Tarix İnstitutunun Elmi Əsərləri, 22-ci cild, B., 2007; Arzumanlı V. 1918-ci il qırğınları. B., Öyrətmən, 1995; Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: deportasiya, soyqırım, qaçqınlıq. B., 1998; Əliyev N. 1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə. B., Nurlan, 2009; Əlizadə M. Azərbaycanda türk-müsəlman soyqırımını öyrənmək üçün mənbələr (1918-1920-ci illər), Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. B., 2005; Məlikməmmədov M. Qanlı dərə: 1918-ci il Quba faciəsi, B., 2009

[13] Paşayev A. Açılmamış səhifələrin izi ilə. B.: Azərbaycan, 2001

orqanlarının materiallarından geniş istifadə etmək lazımdır[14]. Bu fikirləri M.Məlikməmmədov özünün Quba hadisələrinə həsr edilmiş kitabında da bölüşür. Müəllifin yazdığına görə, o, 1971-ci ildən 1997-ci ilədək Qubada erməni vəhşiliklərinin şahidi olmuş müxtəlif insanların xatirələrini toplamış və öz kitabında onlara istinad etmişdir. M.Məlikməmmədov kitabı hazırlayarkən Rusiyanın, Dağıstanın, Azərbaycanın arxivlərindən istifadə etdiyini iddia etsə də, kitabda məhdud miqdarda və yalnız ARDA-nin 1061-ci Fondundakı sənədlərdən və "Бакинский рабочий" qəzetindən iqtibaslar gətirilmişdir. Buna görə də müəllifin kitabda göstərdiyi bir çox faktlar və rəqəmlər, xüsusən Qubada həmin hadisələr zamanı 16 min insanın qırılması ilə bağlı rəqəm[15] bizə şübhəli görünür. Qeyd edilən kitab publisistik səciyyə daşısa da, 1918-ci ildə Quba qəzasında baş vermiş faciənin bir çox məqamlarına aydınlıq gətirilməsində mühüm əhəmiyyət kəsb edən tədqiqat əsəridir.

M.Məlikməmmədovun kitabı ilə yanaşı S.Rüstəmova-Tohidinin adı çəkilən əsəri tarixşünaslıqda indiyədək bütövlüklə 1918-ci ildə Qubada ermənilər tərəfindən həyata keçirilmiş soyqırımı hadisələrinin təhlilinə həsr edilmiş ilk tədqiqat əsəridir. 1918-ci ilin Quba hadisələrini Azərbaycanın türk-müsəlman əhalisinin kütləvi qırğın planının tərkib hissəsi adlandıran müəllif bu əsərində Quba qəzasında dinc əhalinin soyqırımına gətirib çıxarmış hadisələrin səbəblərini, gedişini tədqiq etmiş, soyqırımın ağır nəticələrini hərtərəfli araşdırmışdır.

Göründüyü kimi, soyqırımı hadisələri istisna edilməklə 1917-1920-ci illərdə Quba qəzasının ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatı ayrıca tədqiqat obyekti olmadığından hərtərəfli öyrənilməmişdir. Mövcud tarixşünaslıq materialı bölgənin araşdırılan dövr tarixi haqqında bitkin təsəvvür yaratmağa imkan vermir.

**Tədqiqatın mənbə bazası:** Mövzunun mənbə bazasını şərti olaraq dörd qrupa ayırmaq olar: nəşr edilmiş mənbə topluları, arxiv sənədləri, dövri mətbuat materialları, statistik toplular.

Quba qəzası ilə bağlı bəzi sənədlər hələ Sovet dövründə buraxılmış sənədlər toplusunda[16] işıq üzü görsə də, onların qərəzli şəkildə seçilməsi, müəyyən məqsədlərə xidmət etməsi şübhə doğurmur. Bəzi hallarda həmin

---

[14] İskəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. B.: Adiloğlu, 2006

[15] Məlikməmmədov M. Qanlı dərə: 1918-ci il Quba faciəsi, B., 2009, 415 s.

[16] Böyük Oktyabr və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə, B., EA nəşr., 1958; Большевики в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. (1917-1918). Б.: АЗГОСИЗД, 1957; Борьба за победу Советской власти в Азербайджане, 1918-1920. (Документы и материалы). Б.: Изд.во Акад. Наук. 1967; Интернациональная помощь ХЫ армии в борьбе за победу советской власти в Азербайджане. Документы и материалы, Б.: Азернешр, 1989

sənədlərin özü belə təhrif olunmuş şəkildə çap edilmişdir. Buna görə də onlar ilkin mənbələrlə bir daha tutuşdurulmuş, səhihliyinə aydınlıq gətirilmişdir. Müstəqillik illərində Azərbaycan Xalq Cümhuriyyətinə[17] azərbaycanlıların soyqırımına aid sənədlər və materiallar toplularında[18] Quba qəzası ilə bağlı bəzi sənədlər də işıq üzü görmüşdür. Xüsusən Azərbaycan Xalq Cümhuriyyətinin Ordusuna və xarici siyasətinə[19] dair toplularda qəzadakı hərbi-siyasi vəziyyəti əks etdirən maraqlı materiallar yerləşdirilmişdir. Bu sənədlər toplusunda Azərbaycan Xalq Cümhuriyyətinin Quba qəzasının sosial-iqtisadi, mədəni inkişafı, maarif sahəsində qəbul etdiyi qərarlar, qanunlar, parlamentin və siyasi partiyaların bölgədəki proseslərə münasibətini əks etdirən materiallar cəmləşmişdir.

S.Rüstəmova-Tohidinin tərtibçisi olduğu sənədlər toplusunun əhəmiyyəti xüsusi qeyd edilməlidir. Müəllif böyük zəhmət çəkərək Quba qəzasında 1918-ci ildə ermənilərin həyata keçirdikləri soyqırımına dair Fövqəladə Təhqiqat Komissiyanın materiallarını toplayaraq sistemləşdirmişdir. Kitabda Quba qəzasında ermənilərin törətdiyi vəhşilikləri sübut edən və FTK-ın topladığı istintaq materialları, şahid ifadələri, ermənilərin zorakılıqlarına məruz qalmış kəndlərin siyahısı verilmişdir[20]. Toplunun üç bölməsində yer almış sənədlər müsəlman əhalisinin kütləvi qırğınının xronologiyasını, faciənin qurbanlarının və zərərçəkmişlərin adlarını, dəqiq sayını, onların cinsini, yaşını, dəymiş ziyanın miqdarını, dağıdılmış, yandırılmış yaşayış məntəqələrinin adlarını və sayını müəyyənləşdirməyə imkan verir.

Qəzada və onun ətrafında baş verən ictimai-siyasi proseslər, hərbi-diplomatik hadisələr haqqında çox müfəssəl məlumat mənbəyi dövrün

---

[17] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament. 2 cilddə, I cild, B., Azərbaycan, 1998; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament. 2 cilddə, II cild, B., Azərbaycan, 1998; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. B., Elm, 1990; Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документ и материалы). Б.: Азербайджан, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Б.: Азербайджан, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты. Б.: Азербайджан, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. Б.: Азербайджан, 1998

[18] Azərbaycan Xalq Cümhuriyyətinin 82-ci ildönümünə həsr olunmuş respublika konfransının materialları, B., 2000 Azərbaycan Xalq Cümhuriyyətinin 82-ci ildönümünə həsr olunmuş respublika konfransının materialları, B., 2000; Azərbaycanlılara qarşı 1918-ci il mart soyqırımı. Sənədlər Toplusu, 3 cilddə, B., Təhsil, 2009-2012; Əroğul Ə. Erməni daşnak faşizmi və Azərbaycan, B., Təhsil, 2007

[19] Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документ и материалы). Б.: Азербайджан, 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Б.: Азербайджан, 1998

[20] Рустамова-Тогиди С. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Б.: 2010

mətbuat orqanlarıdır. Əgər Azərbaycan Xalq Cümhuriyyətin yaradılmasına qədər bölgədə cərəyan edən hadisələr haqqında əsas etibarilə, «Каспий » qəzetinin səhifələrində məlumat verilirdisə, Cümhuriyyət dövründə bu rolu başlıca olaraq «Azərbaycan» (Azərbaycan və rus dillərində) qəzeti oynayırdı. «Каспий» qəzetində mütəmadi olaraq Quba qəzasında vəziyyət, bölgə əhalisinin siyasi fəallığı, mədəni proseslər, ictimai siyasi təşkilatların fəaliyyəti və s. haqqında məlumatlar dərc olunurdu. Cümhuriyyət dövründə bütün digər qəzalar kimi Quba qəzasını siyasi, ictimai, mədəni həyatın, hökumətin həyata keçirdiyi tədbirlər haqqında "Azərbaycan" qəzetinin səhifələrində çoxlu faktlara rast gəlmək mümkündür. Bölgədə baş verənlər haqqında məlumat almaq üçün «Açıq söz», «Hümmət», «Баку», «Известия Бакинского Совета», «Бакинский Рабочий», «Заря», «Возрождение», «Знамя труда», «Sovqat», «Искра», «İttihad», «İstiqlal», «Nabat», «Füqara fyuzatı», «Молот» və b. qəzetlərə də müraciət edilmiş, müxtəlif siyasi qüvvələrin bölgədə gedən proseslərə münasibətləri təhlil edilmişdir. Nəzərə almaq lazımdır ki, bu qəzetlərin və onların arxasında duran siyasi qüvvələrin əksəriyyəti Azərbaycanın dövlətçiliyinin qatı əleyhdarı kimi çıxış etdiklərindən onların bir çoxu əksər hallarda qərəzli xarakter daşıyır və real vəziyyəti heç də adekvat əks etdirmirdi. Dissertasiya yazılarkən bütün bu amillər nəzərə alınmış, müxtəlif mətbu orqanlardakı faktlar və materiallar müqayisəli şəkildə öyrənilmişdir.

Quba qəzasında həmin dövrdə sosial-iqtisadi, demoqrafik vəziyyəti öyrənmək baxımından həmin dövrdə və ondan sonra nəşr edilmiş statistik nəşrlərə[21] də müraciət edilmişdir.

Lakin bu mənbələr Azərbaycanın bütün qəzaları kimi Quba qəzasında da o dövrdə mövcud olmuş vəziyyəti müfəssəl şəkildə təhlil etməyə imkan vermir. Bu baxımdan arxiv sənədləri və materialları mühüm rol oynayır. Dissertasiya yazılarkən istifadə olunmuş əsas mənbələr də məhz arxiv sənədləri olmuşdur ki, onların əksəriyyəti elmi dövriyyəyə ilk dəfə olaraq müəllif tərəfindən daxil edilmişdir. Bu sənədlər sırasına Azərbaycan Respublikası Dövlət Arxivinin fondlarının, Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin (ARPİİSSA) fondlarının, Azərbaycan Respublikası Tarix Arxivinin fondlarının, Azərbaycan MEA Tarix İnstitutunun 1 fondunun sənədləri daxildir. Əlbəttə arxiv sənədlərinin heç də hamısı mötəbər sənədlər hesab edilə bilməz. Nəzərə almaq lazımdır ki, arxiv sənədlər tərtib edilərkən onlara dövrün siyasi şəraiti öz təsirini göstərir. ARPİİSSA-nın fondlarında saxlanılan və 1918-ci il hadisələrinin iştirakçısı və şahidi olmuş

[21] Адрес-календарь Азербайджанской Республики на 1920 год. Под. ред. Ставровского. Б.: Изд. Министерства призрения, 1920; Кавказский Календарь на 1917 г., Тифлис, 1916.

bolşeviklərin xatirələrindən ibarət fondun sənədləri bu baxımdan fərqli münasibət tələb edir. Bu xatirələrdə mövcud siyasi rejimin tələblərinə uyğun olaraq 1918-ci il hadisələri xeyli dərəcədə təhrif edilmiş və saxtalaşdırılmışdır. Xüsusən. Şaumyanın başçılığı ilə Bakı XKS-nin Quba faciəsində məsuliyyəti, bu hadisələrdə M.C.Bağırovun iştirakı, yəhudilərin rolu və s. məsələlərlə bağlı xatirə müəllifləri çoxlu təhriflərə yol vermişlər.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya yazılarkən qarşıya qoyulmuş əsas məqsəd 1917-1921-ci illərdə Quba qəzasında ictimai-siyasi, iqtisadi və mədəni proseslərin bitkin təhlilini verməkdən ibarət olmuşdur. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həllinə cəhd göstərilmişdir:

- 1917-ci il fevral inqilabı ərəfəsində Quba qəzasının tarixi-coğrafi, iqtisadi, mədəni vəziyyətinin qısa icmalının verilməsi;
- inqilabdan sonra bölgədə siyasi və inzibati dəyişikliklərin dinamikasının izlənilməsi, müxtəlif milli, siyasi, ictimai təşkilatların yaranması prosesinin öyrənilməsi;
- 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyinin Qubada hakimiyyəti ələ keçirmək üçün atdığı addımların təhlili, qəzanın milli qüvvələrinin bölgə əhalisinin təhlükəsizliyini qorumaq üçün apardığı mübarizənin işıqlandırılması;
- daşnak-bolşevik qüvvələri tərəfindən Quba qəzasında həyata keçirilmiş soyqırımının səbəblərinin, gedişatının və nəticələrinin araşdırılması;
- yerli milli qüvvələr və türk qoşun hissələri tərəfindən bölgənin yadelli düşmənlərdən azad edilməsi prosesinin öyrənilməsi;
- Cümhuriyyət dövründə Quba qəzasında siyasi, iqtisadi, mədəni vəziyyətin təhlili;
- Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bölgənin inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərin işıqlandırılması;
- Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və yerli hakimiyyətin strukturlarının ölkənin suverenliyinin, qəzanın təhlükəsizliyinin əvvəlcə Denikinin qoşunlarının, sonra isə Qırmızı Ordunun müdaxiləsindən qorumaq üçün gördüyü konkret işlərin təhlili;
- Qəzanın Sovet Rusiyası qoşunları tərəfindən işğalı prosesinin izlənilməsi; Sovet hakimiyyətinin qurulması, bolşevizm əleyhinə çıxışların işıqlandırılması;
- Quba qəzasının 1917-1921-ci illər tarixinin əsas mərhələləri, yekunları və nəticələrini ümumiləşdirilməsi.

**Dissertasiya işinin metodoloji əsası:** Mövzunun hərtərəfli araşdırılması üçün tarix elminin əsas metodoloji prinsipləri - obyektivlik, analiz, sintez, faktların müqayisəli təhlili prinsipləri tətbiq edilmişdir. Obyektiv nəticələr çıxarılması üçün, konkret tarixi yanaşma metodundan, hadisə və proseslər ara-

sında məntiqi və əlaqələndirmə üsulundan istifadə edilmişdir. İstifadə olunmuş mənbə və sənədlərə tənqidi münasibət, tarixi həqiqətlərə qərəzsiz yanaşma tədqiqatın elmiliyinin təmin edilməsi üçün əsas metod rolunu oynamışdır.

**Tədqiqatın elmi yeniliyi:** Təqdim olunan dissertasiya Azərbaycanın tarixi ərazisi olan, onun şimal-şərq torpaqlarını əhatə edən tarixi Quba qəzasında 1917-1921-ci illərdə cərəyan etmiş ictimai, siyasi, iqtisadi, mədəni, hərbi-diplomatik prosesləri sistemli şəkildə araşdırıldığı ilk tədqiqat əsəridir.

- dissertasiyada problemin tədqiqi ilə bağlı bir çox mənbələrə istinad edilmiş onların bir çoxu ilk dəfə olaraq elmi dövriyyəyə buraxılmışdır.
- elmi işdə göstərilən dövrdə Quba qəzasının tarixi inkişafının bütövlükdə Azərbaycanda gedən proseslərlə qarşılıqlı əlaqəsi olduğu vurğulanmaqla yanaşı, müəyyən özəlliklərə malik olması sübuta yetirilmişdir.
- regionda baş verən geosiyasi proseslərin, Rusiyada hakimiyyət uğrunda mübarizənin Quba qəzasına təsiri müəyyənləşdirilmişdir.
- ən nəhayət, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün və sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi uğrunda Quba qəzasının əhalisinin, onun milli-siyasi qüvvələrinin eləcə də liderlərinin rolu və xidmətləri əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Dissertasiyanın müddəaları və nəticələri Azərbaycan tarixinə, Cümhuriyyət dövrünə dair fundamental əsərlərin yazılmasında, ölkəmizin şimal-qərb bölgəsinin tarixinə dair tədqiqatların aparılmasında ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirdikləri müəyyən rol oynaya bilər.

Əsər diyarşünaslıq işində, gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsində, xüsusi kursların aparılmasında mühüm vasitə kimi çıxış edə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunda yerinə yetirilmişdir. Dissertasiya institutun "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" şöbəsində müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın ümumi məzmununa dair müəllifin 5 məqaləsi çapdan çıxmışdır ki, onların 1-i xarici ölkələrin nüfuzlu elmi nəşrlərində işıq üzü görmüşdür. Tədqiqatın nəticələri ilə bağlı müəllif müxtəlif elmi seminar və konfranslarda məruzələrlə çıxış etmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Girişdə, həmçinin, əldə olunan elmi yeniliklər verilmiş, tədqiqatın nəzəri və

praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"1917-ci il - 1918-ci ilin əvvəlində Quba qəzasinda ictimai-siyasi proseslər"** adlanan birinci fəsili üç paraqrafdan ibarətdir. **"1917-ci il fevral inqilabı ərəfəsində Quba qəzasında sosial-iqtisadi vəziyyət"** adlanan birinci paraqrafda İndiki Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən rayonlarının ərazilərini əhatə edən Quba qəzası inqilab ərəfəsində Bakı quberniyasına daxil olması və quberniyanın şimal ərazilərini əhatə etməsi, Quba qəzasının sahəsi, əhalisi, coğrafi mövqeyi kimi məsələləri tədqiq etmişdir. Şimalı Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini məhv etmək məqsədilə xanlıqlar ləğv olundu və müstəmləkə siyasətinin həyata keçirilməsinə xidmət edən inzibati-ərazi bölgüsü yaradılmasına başlandı. 1840-cı il 10 aprel tarixli inzibatı məhkəmə islahatı nəticəsində Bakı, Şuşa, Nuxa, Lənkəran, Şamaxı əyalətləri qəzaya çevrilərək, yeni təşkil edilmiş Kaspi vilayətinə, Quba qəzası isə Dağıstan dairəsinə daxil edilmişdi. Çar I Nikolayın 1846-cı il 14 dekabr tarixli fərmanı ilə Cənubi Qafqazın inzibati-ərazi bölgüsündə yeni dəyişikliklər həyata keçirildi. Diyar Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Keçmiş Kaspi vilayətinə daxil olan qəzalar Şamaxı quberniyasında qaldı[22]. 1859-cu il Şamaxı zəlzələsindən sonra quberniya mərkəzinin Bakıya köçürülməsi nəticəsində həmin quberniya Bakı quberniyası adlandırıldı. 1860-ci ildə Dərbənd quberniyasının ləğvindən sonra Quba qəzası da Bakı quberniyasına daxil edildi. Hər bir nahiyə bir neçə - 20-30 qədər icmadan cəmiyyətdən ibarət idi. İnqilabdan əvvəl hər bir quberniya qubernator tərəfindən idarə olunurdu. Qubernator ümumi siyasi vəziyyətə, polisin fəaliyyətinə rəhbərlik edir, yerli hakimiyyət və özünüidarə orqanlarına nəzarəti həmçinin onlar tərəfindən çar qanunları və hökumət sərəncamlarının düzgün yerinə yetirilməsini izləyirdi, şəhər başçısını və bələdiyyə idarəsinin üzvlərini təsdiq edirdi. Qubernator inqilabi hərəkatla mübarizədə fövqəladə səlahiyyətlərə malik idi. Kənd idarəçiliyi kənd yığıncağından və bu yığıncaq tərəfindən seçilmiş vəzifəli şəxslərdən - kəndxuda, onun köməkçiləri və kənd məhkəmələrindən ibarət idi. Toplanışda kəndin vəzifəli şəxslərinin seçilməsindən başqa aşağıdakı məsələlərə baxılırdı: vergi və mükəlləfiyyətlərin kəndlilər arasında bölüşdürülməsi, kiçik yaşlılara və xəstələrə himayəçilərin təyin edilməsi, ictimai otlaqlar və təsərrüfat yerlərindən istifadə edilməsi, kənd cəmiyyətindən çıxarılma və s. toplanışın qərarları hökm kimi rəsmiləşdirilirdi[23]. Kəndxuda və onun köməkçiləri kənd müdiriyyətini (idarəsini) təşkil edirdilər. Onlar kənd cəmiyyətinin 25 yaşına çatmış üzvlərindən 3 illiyə seçilirdi. Kəndxuda qubernator tərəfindən onun

[22] Fərzəlibəyli Ş. Quba tarixi. B., Əbilov, Zeynalov və qardaşları, 2001
[23] ARDA, f. 77, s. 2, iş 19.

köməkçiləri isə qəza rəisi tərəfindən təsdiq edilirdi. Kəndxudanın vəzifəsinə kənd toplanışının çağırılması və buraxılması, eləcə də onun qərarlarının həyata keçirilməsi daxil idi. Hakimlər ən varlı kəndlilər içərisindən 3 illiyə seçilirdi.

Quba qəzası Bakı quberniyasına daxil olan digər altı qəza kimi irtica rejimin quberniya və qəzalara biganə münasibətindən ifadə olunmaz bir çətinlik çəkirdi. Ali qanunun yaradılmadığı və ya işləmədiyi bir yerdə sosial-iqtisadi irəliləyişdən söhbət gedə bilməzdi. Qeyd olunan dövrdə Quba qəzası sakinlərinin sosial - iqtisadi durumu çox acınacaqlı idi. Bakı qəzeti 6 yanvar 1917-ci il 5-ci sayında bununla bağlı yazırdı: "Quba qəzası bilinməyən yollarla əvvəlki mübadilə şərtlərinə qayıdır. Pul vəsaiti kimi qiymətli olan şəkərdir. Maraqlıdır ki, şəkər pul ilə eyni qiymətdədir.

**"Fevral inqilabından sonra qəzada siyasi dəyişikliklər"** adlanan ikinci paraqrafda göstərilir ki, 1917-ci ilin fevral inqilabı nəticəsində çar rejiminin devrilməsi, bütün ölkədə olduğu kimi Azərbaycanda da köklü ictimai-siyasi dəyişikliklərə səbəb oldu. Mart ayının 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə (XZK) verildi. XZK real hakimiyyəti malik olmadığından Cənubi Qafqazın müxtəlif bölgələrində faktiki olaraq hakimiyyəti yaranmaqda olan sovetlər və digər ictimai-inqilabi təşkilatlarla bölüşməli olurdu. 1917-ci ilin martında Tiflisdə, Bakıda və Cənubi Qafqazın digər şəhərlərində təşəkkül tapmış fəhlə deputatları sovetləri köhnə hakimiyyət strukturlarını əvəzləmək iddiasını ortaya qoydular. 1917-ci il mart ayının 27-də Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradılmış, "Müsavat" partiyasının üzvü, hüquqşünas Məmməd Həsən Hacınski onun sədri, müavini isə Müsavat partiyasının lideri Rəsulzadə seçilmişdi. Komitə heyətinə ziyalılardan və neft sənayeçilərindən Ə.M.Topçubaşov, F.X.Xoyski, M.Ə.Rəsulzadə, M.Hacınski, A.Q.Tağıyev, Ə.Əmircanov, Y.A.Əliyev, M. Əsədullayev, M.Heydərov və s. daxil edilmişdi. Bu Şura eyni zamanda ictimai-siyasi və milli təşkilat rolunu oynayırdı. Bakıda fəaliyyət göstərən Müsəlman Milli Şurası Zaqafqaziya Milli Şuraları içərisində ən nüfuzlusu idi[24]. Fevral inqilabından sonra bütün ölkədə müşahidə olunan siyasi dəyişikliklər Quba qəzasına da öz təsirini göstərirdi. Əhalinin ictimai-siyasi fəallığının artması, yeni siyasi qüvvələrin meydana gəlməsi və onların hakimiyyət uğrunda mübarizəyə başlaması qəzada yaxın gələcəkdə təlatümlü siyasi proseslərin baş verəcəyindən xəbər verirdi.

**"Oktyabr çevrilişi və Quba qəzasında ictimai-siyasi vəziyyət"** adlanan üçüncü paraqrafda RSDF(b)P Bakı Komitəsinin tapşırığı ilə H.Sultanov, M.Aydınbəyov, M.İsrafilbəyov və başqa bolşeviklər Quba qəzasının müxtəlif yerlərində Sovet hakimiyyətinin qurulması, Eyni zamanda Bakı

---

[24] Azərbaycan tarixi, 7 cilddə, V cild, (1900 – 27 fevral – 1920), B., Elm, 2001

Sovetinin rəhbərliyi qəzanı nəzarətə almaq üçün buraya silahlı dəstələr göndərmişdi. Quba Qəzası Müsəlman Milli Komitəsi, onun nümayəndələri Ə.Zizikski, Şıxlar bəyi İbrahimbəy, onun qardaşları Həsənbəy, Mürsəlbəy, Qonaqkənd cəmiyyətin pristavı Mayıl Zahirov, Həmdulla Əfəndi və başqaları xüsusi rol oynayırdılar. İbrahimbəy 400 nəfərlik könüllülər dəstəsi təşkil edərək yerli əhalinin mühafizəsini təşkil etmişdi.

**"Quba qəzasında türk-müsəlman soyqırımı"** adlanan ikinci fəsil iki paraqradan ibarətdir. Birinci paraqraf **"Gelovaninin başçılığı altında Bakı Sovetinin hərbi qüvvələrinin qəzaya hücumu"** adlanır. 1918-ci ilin martında Bakı şəhərində azərbaycanlıların soyqırımını təşkil edən Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyi öz hakimiyyətini bütün Azərbaycanda bərqərar etmək üçün fəal hərəkətlərə keçdilər. Bakı Quberniyasının Bakı, Şamaxı və Lənkəran qəzalarından sonra Quba qəzası sovetlərin hakimiyyətinin qurulması üçün növbəti məkan oldu. Lakin quberniyanın başqa qəzalarından fərqli olaraq Quba qəzasında sosial-siyasi şərait bir qədər fərqli səviyyə daşıyırdı. Artıq göstərildiyi kimi, ermənilər qəzanın iqtisadi, inzibati və siyasi həyatında elə də ciddi rol oynamırdılar. İctimai Təşkilatların İcraiyyə komitəsində və Müsəlman Milli Şurasında təmsil olunan bu qüvvələr Bakı Sovetinin hakimiyyətini tanımaqdan imtina edərək, Cənubi Qafqazın dövlətçilik strukturlarına sadiq qaldıqlarını nümayiş etdirdilər. Bakı XKS qəzanı siyasi yolla özünə tabe etdirmək qərarına gəlmiş, qəza əhalisinə Sovet hakimiyyətini könüllü tanımağı təklif etmişdir. Bu məqsədlə Şaumyan tərəfindən təcrübəsiz və təsadüfi bir şəxs - David Aleksandreviç Gelovani Quba qəzasına göndərilmişdi. Gürcü knyazlarının nəslindən olan 30 yaşlı Gelovani menşevik partiyasının üzvü olmuş, siyasi əqidəsinə görə sürgün edilmiş, Oktyabr çevrilişindən sonra azad edildikdən Qafqaza, valideynləri ilə görüşə gəlmişdi. Lakin baş verən hadisələr ucbatından mərkəzi Rusiya ilə dəmiryolu rabitəsi kəsilmiş və o geriyə qayıda bilməyərək Bakıda boş-bekar qalmışdı. A.Caparidzenin dəstəyi ilə milis sıralarına qəbul olunan Gelovani hadisələrin gedişatında Xaçmaz dəmiryolu ilə hərəkət edən, əsasən ermənilərdən ibarət iki minlik hərbi eşelonun başına keçirilmiş, məhz bu eşelon ona neytral şəxs kimi qubalılara bolşeviklərin hakimiyyətini qəbul etmək haqqında ultimatum verməyi tapşırmışdı[25]. Əslində bolşeviklər ona Qudermes stansiyasına qədər dəmiryol hərəkətinin bərpa edilməsinin təşkilini tapşırmışdılar[26] Bir sıra əsərlərdə Qubada sovet hakimiyyətinin qurulmasının tarixi aprel ayının 8 və ya 9-u olaraq qeyd olunur[27]. Yuxarıda göstərilənlərə və digər arxiv

---

[25] Рустамова-Тогиди С. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Б.: 2010
[26] ARDA, f. 1061, s. 1, iş 96.
[27] Süleymanov M.S. Azərbaycan Ordusu (1918-1920). B.: Hərbi nəşriyyatı, 1998

sənədlərinə əsaslanaraq deyə bilərik ki, mənbələrdə qeyd olunmuş 8-9 aprel tarixi yuri təqvimi ilə göstərilmiş tarixlərdir. Gelovaninin təhdidləri qarşısında çarəsiz qalan sakinlər Qubada sovet hakimiyyətini qriqoryan təqvimi ilə 23 apreldə qəbul etmişdilər. Bunu "Бакинский рабочий" qəzeti də təsdiq edir[28].

Gelovaninin dəstəsinin milli qüvvələrin müqaviməti nəticəsində Qubanı tərk etməsi ilə Bakı XKS-nin qəzada hakimiyyəti ələ keçirmək üçün atdığı ilk cəhd uğursuzluqla nəticələndi.

**"Qəzada soyqırımın həyata keçirilməsi və onun nəticələri"** adlanan ikinci paraqrafda göstərilir ki, Gelovani Qubanı tərk etdikdən sonra qəzada nisbi sabitlik yaranmış, ona görə də ətraf ərazilərdən və Dağıstandan yadelli düşmən qüvvələrlə mübarizəyə qoşulmuş könüllülər öz evlərinə qayıtmışdılar. Buna görə də əslində Hamazaspın başçılığı altında Qubaya cəza dəstəsinin göndərilməsi qubalılar üçün bir qədər gözlənilməz olmuş və ciddi müqavimət təşkil etmək mümkün olmamışdı. Yalnız erməni dəstələrinin şəhərə yaxınlaşmasını eşidən yerli liderlər öz qüvvələrini yenidən təşkil etmək üçün müəyyən addımlar atmış, bir sıra kəndlərdə, o cümlədən Qusar nahiyəsinin Xuluq, Hil, Yasab, Bedüli-kölə kəndlərində dəstələr yaratmış, əlavə kömək üçün Dağıstana nümayəndələr göndərmişdi. Hələ Quba şəhərinə çatmamış erməni quldur dəstələri öz yolları boyunca dinc əhalinin yaşadığı kəndləri yandıraraq dağıtmağa başlamış, kütləvi qırğınlar törətmişdilər. Harınlamış ermənilər qocalara, uşaqlara, qadınlara belə aman verməyərək qabaqlarına çıxan bütün müsəlmanları qılıncdan keçirmişdi.

Mayın 1-də üç tərəfdən şəhərə girən işğalçılar qətllər və talanlara başladılar. Elə birinci gün şəhərin aşağı hissəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 715 müsəlman öldürülmüş, Böyük Şose və Bazar küçələri dağıdılmışdı. Dəstə şəhərə girdikdən sonra dörd hissəyə bölünmüş və qərargahlar yaradılmışdı: birinci qərargah Leontyev bağının yanında, ikincisi erməni kilsəsinin həyətində, üçüncüsü dağda, müsəlman qəbiristanlığının yaxınlığında, dördüncü, mərkəzi qərargah isə Yəhudi qəsəbəsinin təpəsində yerləşdirilmişdi. Ermənilərin vəhşilikləri sonrakı günlərdə də davam etmiş, ikinci gün 1012 nəfər dinc sakin qətlə yetirilmişdi. Hamazasp dəfələrlə edilmiş müraciətlərə baxmayaraq öldürülmüş müsəlmanların meyidlərinin küçələrdən yığışdırılmasına və dəfn edilməsinə icazə verməmişdi. Məqsəd də aydın idi - əhalini qorxutmaq. Zorakılıqlar, qətl və qarətlər 9 gün davam etmiş, şəhər əhalisinin bütün əmlakı talan edilmişdi. Quba qırğınlarının birbaşa təşkilatçıları - Şaumyan, Korqanov, icraçıları Hamazasp, Volunts və erməni millətindən olan başqa canilər idilər. Bolşevik və daşnak S.Şaumyanın rəhbəri olduğu Bakı Sovetinin əsasən ermənilərdən ibarət və daşnak Hamazaspın komandanlığı altında olan quldur

[28] // Бакинский рабочий» газ.

dəstələrinin Qubada törətdikləri vəhşiliklər vətəndaş müharibəsi və ya Sovet hakimiyyətinin qurulması hadisəsi deyil, bütöv bir xalqın yalnız milli mənsubiyyətinə görə kütləvi şəkildə məhv edilməsi – soyqırım hadisəsi idi.

Dissertasiyanın **"AXC hakimiyyəti dövründə Quba qəzasinda ictimai-siyasi vəziyyət"** adlanan üçüncü fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"AXC-nin bölgədə suverenliyinin təmin edilməsi və siyasi dəyişikliklərin həyata keçirilməsi"** adlanır. Quba mahalı bolşevik-daşnak qüvvələri tərəfindən işğal edildikdən dərhal sonra – 1918-ci il mayın 3-də Qəza Hərbi İnqilab Komitəsi yaradıldı. Komitənin tərkibinə Ə.Talıbov, M.Tahirov, Ə.Nəcəfov, M.Mehdiyev və b. daxil oldular. Bakı XKS A.Yusifzadəni Quba qəzası üzrə komissar təyin etmişdi. Quba qəzasının vətənpərvər oğulları bolşevik-daşnak güruhunun ağalığı dövründə də milli mücadiləni davam etdirmiş, əldə silah yadellilərə qarşı vuruşmuşlar. Əlibəy Zizikskinin başçılığı altında 6 min nəfərlik dəstə Quba qəzasının müxtəlif yerlərində bolşevik-daşnak qüvvələrinə ciddi müqavimət göstərirdi. Bu dəstədə yerli azərbaycanlılarla yanaşı türk zabitləri İsmayıl Əli Əfəndi, Məhbala Əfəndi, Həmdulla Əfəndi, Əhməd Triniç kimi insanlar da fəaliyyət göstərirdilər.

May ayının ortalarında öz güclərini yenidən bərpa edən milli qüvvələr Qubanı azad etmək üçün hücuma keçdilər. Yəhudilər qəsəbəsinin üstündəki düzdə güclü müdafiə mövqeyi tutmuş Sovet qoşunlarının müdafiəsini qıran milli qüvvələr qəsəbəni ələ keçirərək şəhərə daxil oldular. Onlar həmçinin Xudat-Qusar cəbhəsində yerləşən düşmən qüvvələrini də mühasirəyə alaraq, onların Xaçmazla əlaqələrini kəsdilər. A.Oqenezovun başçılıq etdiyi, əsasən ermənilərdən ibarət hissələr mühasirəni yarmaq istəsələr də buna nail ola bilmədilər. Dərbənddən onların köməyinə gəlmiş qüvvələr də mühasirəni yara bilmədilər. Xudat-Qusar cəbhəsində də sovet hərbi hissələri ciddi məğlubiyyətə uğradılar. Xeyli canlı itki vermiş düşməndən çoxlu sayda silah-sursat, o cümlədən 2 top, 800 top mərmisi, 4 pulemyot, 2 ərzaqla dolu furqon qənimət götürüldü[29]. Bakı XKS Sovetinin bütün qoşun hissələri kimi, Quba qəzasında əməliyyat aparan hissələrin də əsas tərkibi ermənilərdən ibarət idi. Onlara Martıkyan, Oqenezov, Koçarov, Mixitarov, Davidyants kimi dinc müsəlman əhaliyə qarşı vəhşiliklər törətmiş komandirlər başçılıq edirdilər.

Quba şəhərində və bir sıra nahiyələrdə silahlı yolla nəzarəti ələ keçirmiş qüvvələr burada Sovet hakimiyyətini yenidən bərpa etdilər. Dinc müsəlman əhalisinə qarşı əsil vəhşiliklər törədilir, kütləvi həbslər və müsadirələr həyata keçirilirdi. 1918-ci il iyulun ortalarında polkovnik Şükrü paşanın komandanlığı ilə türk ordusunun bir dəstəsinin Zaqataladan keçərək Axtıya gəlməsi hərbi vəziyyətin dəyişməsinə təsir göstərdi.

---

[29] //«Возрождение» газ.

Qubanın azad edilməsində Qafqaz İslam Ordusu qüvvələri tərəfindən Bakının mühasirəyə alınmasının böyük rolu oldu. Belə ki, Bakı ilə Quba arasında əlaqə kəsilmiş, Qubadakı bolşevik-daşnak qüvvələrin Bakıdan yardım alma imkanları olmamışdı. Hələ Bakını azad etməmişdən əvvəl ruslara əsir düşmüş, lakin inqilab nəticəsində azad olmuş türk zabitləri (Şükrü bəy və Arif bəy) tərəfindən Dağıstanda 500 nəfərlik birlik təşkil edilmiş və türk ordusu ilə əlaqə yaradılmışdı. Türk hərbi komandanlığı 1918-ci ilin avqust ayının əvvəllərində bolşeviklərə qarşı Qimri, Arkas və Qızılyar cəbhələrindən hücuma başlasa da avqustun 5-ə qədər sürən döyüşlərdə ciddi uğura nail olmamış, bolşeviklər də əsaslı üstünlük əldə edə bilməmişdilər. Bunun səbəbi Dağıstanın daxilində əhalinin bolşevik qüvvələrinə ciddi müqaviməti olmuşdur[30].

Quba qəzası əhalinin sayına və ərazisinə görə Azərbaycanın mühüm bölgələrindən biri idi. Qəza Azərbaycan parlamentində 3 deputatla (1-i şəhərdən, 2-i qəzadan) təmsil olunmuşdu[31]. Bunlar Ə.Zizikski, M.B.Axundzadə və Q.Ə.Məhəmmədbəyov idilər.

Quba milli qüvvələr tərəfindən azad olunduqdan sonra Əmiraslan Xan Xoyski Quba qəzasının rəisi təyin olunmuşdu. Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri Fətəli Xan Xoyskinin böyük qardaşı general-leytenant Cahangir Xan Xoyskinin oğlu Ə.X.Xoyski Xalq Cümhuriyyəti dövründə Bakı qubernatorunun birinci müavini, sonra Gəncə qəzasının rəisi, daha sonra isə Daxili İşlər Nazirliyinin Qazax qəzası üzrə xüsusi səlahiyyətli nümayəndəsi və Quba qəzasının rəisi olmuşdur. Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra, Əmiraslan Xan Xoyski Gəncədə sovet-bolşevik işğalçılarına qarşı qaldırılmış üsyanın əsas təşkilatçılarından biri idi.

Həmin dövrdə Azərbaycanda cərəyan edən siyasi hadisələr, hakimiyyət böhranları ölkədə köklü siyasi-iqtisadi islahatlar aparmağa imkan vermirdi.

İkinci paraqraf **“Qəza əhalisinin sosial-iqtisadi vəziyyəti”** adlanır. Cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsil məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Həmin dövrdə Azərbaycanda 666 məktəb mövcud idi ki, bunlardan da 54-ü Quba qəzasının payına düşürdü[32]. Qəzanın müxtəlif nahiyə və kəndlərindən əhali yerli və dövlət hakimiyyət orqanlarına müraciət edərək məktəb açılması üçün yardım göstərilməsini xahiş edirdilər. Qusar nahiyəsinin Xuluq, Yasab kəndlərinin nümayəndələri Xalq Maarifi Nazirliyinə müraciət edərək bu kəndlərdə ibtidai məktəb, Aşağı

---

[30] Yücəər N. Birinci Dünya Müharibəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyatı. Azərbaycan və Dağıstanın öz müstəqilliklərini qazanmaları. 1918, B.: Qafqaz Universiteti, 1999

[31] Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты. Б.: Азербайджан, 1998

[32] Назарли А. Народное образование в Азербайджанской Республике. Б.: Нурлан, 2008

Qəndob kənd cəmiyyəti isə «Əmriyyə məktəbi» açmağı xahiş etmişdilər. Müvafiq təşəbbüslə xalq məktəbləri müfəttişləri də çıxış etmişdilər. Kilax və Maqsudkənd məktəb müdirləri Xalq Maarifi Nazirliyindən Qubada dövlət idarəsi qulluqçuları üçün axşam kursları almağı xahiş etmişdi. 1920-ci il fevralın 8-də Qubada təntənəli surətdə qadın məktəbi açılmışdı[33]. Yenicə təşəkkül tapmasına, siyasi və iqtisadi böhran şəraitində yaşamasına və ciddi təhlükələrlə üzləşdiyinə baxmayaraq Azərbaycan Cümhuriyyəti hökuməti bütün bölgələrdə olduğu kimi Quba qəzasında da xalqın sosial-mənəvi ehtiyaclarını ödənilməsi, maarif və mədəniyyətin inkişaf etməsi üçün müəyyən işlər həyata keçirmişdi. Bölgədə mədəni-maarif işinin yaxşılaşdırılmasında geniş ictimaiyyət, ziyalılar da mühüm rol oynayırdılar. Təəssüf ki, sonrakı geosiyasi proseslər, cümhuriyyətin süqutu Quba qəzasında nəzərdə tutulmuş sosial-iqtisadi, mədəni-maarif vəzifələrin həyata keçirməyə imkan vermədi.

**"Quba qəzası regional hərbi-siyasi proseslərdə Denikin təhlükəsinə qarşı mübarizə"** adlanan üçüncü paraqraf 1919-cu ilin əvvəllərindən başlayaraq Şimali Qafqazda hərbi-siyasi vəziyyətin gərginləşməsi Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü üçün real təhlükə yaratdığı sənədlər əsasında izlənilmiş və ğyrənilmişdir. Denikin qoşunlarının Dağıstana soxulması bu təhlükəni daha da artırdı və Azərbaycanın şimal bölgəsi olan Quba qəzasında ictimai-siyasi sabitliyə öz mənfi təsirini göstərməyə başladı. 1919-cu ilin mayında Denikin qoşunları Petrovsk və Dərbəndi ələ keçirdikdən sonra Azərbaycanın dövlət sərhədlərinə çıxdılar. Mayın 23-də Dağıstan Respublikası buraxıldı. Onun yerinə Denikin əlaltısı, çar generalı Xəlilovun oyuncaq hökuməti quruldu. Azərbaycan hökuməti və parlamenti yaxınlaşmaqda olan təcavüzün qarşısını almaq üçün müəyyən hərbi, siyasi-diplomatik addımlar atsa da Denikin təhlükəsi günü-gündən daha real xarakter alırdı. Denikin təhlükəsi ilə bağlı məsələlər Azərbaycan parlamentin bir sıra iclaslarında, o cümlədən 1919-cu il mayın 26-da və iyunun 5-də keçirilmiş iclaslarında müzakirə edildi. müəyyənləşdirdiyi demarkasiya xəttinin birbaşa pozulması oldu.

Azərbaycan hökuməti dövlət sərhədlərinə təcavüzün qarşısını almaq üçün bir sıra hərbi tədbirlər görməli oldu. Şimal sərhədlərinin möhkəmləndirilməsi üçün hərbi nazirin 19 iyun 1919-cu il tarixli əmri ilə Xaçmaz dəstəsi yaradıldı[34]. Denikin təhlükəsi ilə mübarizə məqsədi ilə Azərbaycan ərazisində, əsasən Quba və Bakı qəzalarında könüllü dəstələrin yaradılmasına başlanılmışdı. Hələ 1919-cu il aprelin 30-da Azərbaycan parlamenti tərəfindən könüllü dəstələrin yaradılması ilə bağlı komissiya təşkil olunmuş və

---

[33] //«Азербайджан» газ.
[34] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Б.: Азербайджан, 1998

komissiya bu məqsədlə əhaliyə müraciət etmişdi. Bu işdə Quba əhalisi xüsusi fəallıq göstərirdi. Quba qəzası rəisinin sərəncamı ilə silahlanmış qubalılar Samurçay xəttində mövqe tutmuşdular. Lakin qeyri-mütəşəkkil kütlənin sərhədlərdə cəmləşməsini sərhəd münaqişəsinə və denikinçilərlə arzuolunmaz toqquşmalara gətirə biləcəyindən ehtiyat edən hərbi nazir bu dəstənin sərhəd xəttindən bir qədər geri çəkməyi və Quba partizanlarının Bakı alayının komandanlığına tabe etdirməyi məqsədəuyğun hesab etmişdi. Hərbi nazirin sərəncamı ilə «Tatar» polku və zirehli qatar şimal sərhədinə göndərilmiş və Bakı qarnizonunun rəisi general Usubov Xaçmaz dəstəsinin rəisi təyin edilmişdi[35]. General Mehmandarov özü də şimal sərhədində vəziyyətlə tanış olmaq üçün Quba qəzasına səfər etmişdi. Azərbaycan hərbi kəşfiyyatı Könüllülər ordusunun hərəkətləri barədə kifayət qədər məlumatlara malik idi. Azərbaycan ərazisində aeroplanların uçuş etməsi yerli əhalini vahimədə saxlamaq məqsədi güdürdü. Deniknçilərin ilkin planına Qızılburuna qədər bütün Azərbaycan ərazisini tutmaq daxil idi. Beləliklə də bütün Quba qəzası itirilmiş olurdu.

Arxiv sənədləri də sübut edir ki, Ermənistan Respublikası ilə Könüllülər Ordusu arasında sıx əlaqələr mövcud idi. Könüllülər Ordusunun cənuba doğru irəliləməsindən istifadə edən ermənilər Zəngəzurda və Qarabağda təxribat hərəkətlərini genişləndirilməklə, Azərbaycan qoşunlarının şimal sərhədini müdafiəsiz qoymaq istəyirdilər. Eyni zamanda denikinçilər də sərhəddə təxribatlar törətməklə erməni qoşunlarına qarşı Azərbaycan ordusunun genişmiqyaslı əməliyyatlar aparmasının qarşısını almaq məqsədi güdürdülər.

**“AXC-nın süqutundan sonra Quba qəzasında siyasi vəziyyət”** adlanan dördüncü fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **“Qəzada sovet hakimiyyətinin yaradılması. İnzibati dəyişikliklər”** adlanır. 1920-ci il martın 28-də Petrovski şəhəri XI Qırmızı Ordu tərəfindən ələ keçirildi. Bolşevik rejiminin Şimali Qafqazda denikinçi qüvvələrə qalib gəlməsindən sonra Bakıda və digər bölgələrdə olduğu kimi Quba qəzasında da yerli bolşeviklər Rusiyadan, eləcə də Bakı bolşeviklərindən hərbi-siyasi, maliyyə dəstəyi alaraq Azərbaycan dövlətçiliyinə qarşı açıq-aşkar təxribat fəaliyyətinə keçdilər. Baş nazir N.B.Yusifbəylinin daxili işlər nazirinə göndərdiyi 8 mart 1920-ci il tarixli məktubda Dağıstan bolşeviklərinin Azərbaycan bolşeviklərindən insani və maddi yardım aldıqları bildirilir, ondan bolşeviklərin Azərbaycandan Dağıstana və əksinə maneəsiz keçməsinin qarşısını almaq üçün bütün tədbirləri görmək tələb olunurdu[36]. Bolşeviklərin Azərbaycana

[35] Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документ и материалы). Б.: Азербайджан, 1998
[36] ARDA, f. 894, s. 7, iş 18.

daxil olmasının qarşısını almaq məqsədilə Quba qəza rəisinin Ağabəyovun sərəncamı ilə qəzanın Dağıstanla sərhədboyu iki yerdə – Yalama və Xəzri rayonlarında mühafizə təşkil olunmuşdu.

**“Sosial münasibətlərin gərginləşməsi. Sovet rejimi əleyhinə çıxışlar”** adlanan ikinci paraqraf Aprel işğalından sonra bolşeviklər Azərbaycanda “proletariat diktaturası” adlandırılan, Rusiya sayağı sovet rejiminə iqtisadi zəmin yaradan tədbirlər həyata keçirməyə başlamışlar. İnqilab komitəsinin torpaq haqqında 1920-ci il 15 may tarixli dekretinin müstəsna əhəmiyyəti olmuşdur. Həmin dekretə görə bütün xan, bəy və vəqf torpaqları müsadirə edilir, ödənişsiz kəndlilərin istifadəsinə verilirdi. Bu dekretin həyata keçirilməsi nəticəsində Azərbaycanda mülkədar torpaq sahibliyi ləğv olundu. 15 may tarixli dekretlə Azərbaycan ərazisindəki meşələr, sular və yeraltı sərvətlər milliləşdirilərək dövlət mülkiyyətinə verildi.

Hakimiyyətə gəlmiş bolşeviklər Azərbaycan Cümhuriyyətinin görkəmli nümayəndələrini, digər partiya və “siyasi qrup”ların rəhbərlərini, Azərbaycan ordusunun xadimlərini həbs etməyə başladılar.

Dördüncü fəsildə bütün yuxarıda göstərilən məsələlərlə bağlı çoxsaylı faktik material verilir.

Dissertasiyanın **“NƏTİCƏ”** hissəsində ümumiləşdirmələr aparılmış, tədqiqat prosesində əldə olunan nəticələr verilmişdir.

### Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsələrində öz əksini tapmışdır:


1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Quba qəzasında siyasi vəziyyət. “Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir” mövzusunda beynəlxalq elmi konfransın materialları. Azərbaycan MEA Tarix İnstitutunun elmi əsərləri. 38-ci cild,2011, Bakı, “Elm”, s.300-312
2. Azərbaycan Xalq Cümhuriyyətinin Quba qəzasında suverenliyinin bərpa edilməsi. Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Humanitar və təbiət elmləri seriyası. 2013, №4. s. 223-228.
3. Падение демократическщй республики в Азербайджане и антисоветские выступления в Губинском уезде. Гилея. Научный вестник. Национальный педогогичный университет имени М.П. Драгоманова. Киев. 2013,выпуск 79, №12 с.110-115.
4. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Quba bölgəsində sovet rejimi əleyhinə çıxışlar. Azərbaycan MEA Tarix İnstitutunun elmi əsərləri. Bakı, № 2010, cild 35.s.114-123
5. Regionda hərbi-siyasi proseslər və Quba qəzası. Azərbaycan MEA Tarix İnstitutunun elmi əsərləri. Bakı, № 2013, cild 46-47,s.444-450.

**Rakhshanda Bayramova**

**The Guba region in the period of the Azerbaijan Democratic Republic**

**Summary**

The thesis covers the history of the Guba uyezd (district) of Azerbaijan in the 1917-1920 years.

The thesis consists of an introduction, four chapters, seven paragraphs, conclusion and the bibliography. The relevance and chronological scope of the theme are grounded, the degree of studying of the problem is elucidated, the sources and literature are reviewed in the introduction. The introduction also defines goals and objectives, relevance, scientific novelty, theoretical and practical significance of the thesis.

The first chapter of the work is entitled as **"Social and political processes in Guba uyezd in 1917 and at the beginning of 1918"** and consists of three paragraphs. The socio-economic development of the county before 1917 and the political situation is illuminated, and a brief overview of the geographic and administrative situation is given there.

The second chapter of the thesis entitled as **"The Genocide of the Turkic-Muslim people in the Guba uyezd"** illuminates the atrocities and crimes committed by Bolshevik-Dashnak forces in the spring and summer of 1918 in Guba uyezd. In the first paragraph, the attack on the uyezd of armed gangs of the Baku Council under the command of Gelovani is considered.

The second paragraph of the chapter is entitled as **"The implementation of genocide in the uyezd and its consequences."** The paragraph provides a detailed analysis of the crimes committed by armed units of the Baku Soviet, the personnel and command of which consisted entirely of Armenians.

The third chapter of the dissertation on the theme **"The socio-political situation in Guba uyezd in the period of ADR"** consists of three paragraphs. In this chapter basing on the analysis of numerous archival materials is described in detail the efforts of the ADR government to ensure their sovereignty in this region of the country, to strengthen social and political stability and to implement administrative and socio-economic reforms.

The fourth chapter of the thesis is called **"The political situation in Guba uyezd after the fall of the ADR"** and consists of two paragraphs. The first paragraph deals with issues related to the establishment of Soviet power in the uyezd and administrative changes implemented by the new regime.

The main conclusions of the author are reflected in the **"Conclusion"** of the thesis.

**Рахшанда Байрамова**

# Губинский регион в период Азербайджанской Демократической Республики

В диссертационной работе освещается история Кубинского уезда Азербайджана в период 1917-1920 годов.

Диссертация состоит из введения, четырех глав, семи параграфов, заключения и списка использованной литературы. Во введение обосновываются актуальность и хронологические рамки темы, раскрывается степень изученности проблемы, дается обзор источников и литературы. Во введение также определены цели и задачи, актуальность, научная новизна, теоретическое и практическое значение диссертации.

Первая глава работы называется **«Общественно-политические процессы в Кубинском уезде в 1917 году и в начале 1918 года»** и состоит из трех параграфов. В них описываются социально-экономического развития уезда до 1917 года, политическое положение, дается краткий обзор географиического и административного положения.

Во второй главе диссертации - **«Геноцид тюрко-мусульманского народа в Кубинском уезде»** - освещаетя зверства и преступления, свершенные болшевистско-дашнакскими силами весной и летом 1918 года в Кубинском уезде. В первом параграфе рассматривается нападение на уезд вооруженных банд Бакинского Совета, под командованием Геловани.

Второй параграф главы называетя **«Осуществление геноцида в уезде и его последствия».** В параграфе дается обстоятельный анализ преступлений, свершенных вооруженными частями Бакинского Совета, личный состав и командование которых состояли целиком из армян.

Третья глава диссертации по теме **«Общественно-политическое положение Кубинского уезда в период АДР»** состоит из трех параграфов. В главе на анализе многочисленных архывных материалов, подробно излагается усилия правительства АДР по обеспечению своего суверенитета в этом регионе страны, укреплению общественно-политической стабильности и осуществлению административных и социально-экономических реформ.

Четвертая глава диссертации называется **«Политическое положение в Кубинском уезде после падения АДР»** и состоит из двух параграфов. В первом параграфе рассматриваются вопросы, связанные с установлением Советской власти в уезде и административными изменениями, осуществленные новым режимом.

Основные выводы автора нашли свое отражение в «Заключение» диссертации.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА ИНСТИТУТ ИСТОРИИ им. А.А. БАКИХАНОВА

*На правах рукописи*

**РАХШАНДА КУРБАН кызы БАЙРАМОВА**

# ГУБИНСКИЙ РЕГИОН В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

*Специальность: 5503.02 – Отечественная история*

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

Баку – 2018